

*Şəddat CƏFƏROV,*
*“Bakı mətbəəsi”nin direktoru,*
*iqtisadiyyat elmləri üzrə*
*fəlsəfə doktoru, yazıçı, jurnalist*

# Qara Tağızadənin ağ dünyası

Tale elə gətirib ki, 40-cı illərin əvvəllərində dünyaya gələn nəsli müharibə dövrünün övladları adlandırıblar. Mən müharibədən bir il əvvəl, Qara Tağızadə dünyanı qana çalxalayan həmin müharibədən bir il sonra doğulmuşuq. Amma sonralar gördüm ki, müharibə dövrünün övladları həqiqətən bir-birinə çox doğma yanaşır. Mən də, Qara Tağızadə də əslində elə müharibə dövrünün övladları arasında böyüyürdük, biz bir dövrün adamlarıydıq.

Hərdən məni radioya müxtəlif məsələlərlə bağlı çıxışlara dəvət edirdilər. Mən radioda Azərbaycan radio sənətinin (bəli, mən bunu sənət adlandırıram) aparıcı simaları ilə çox görüşmüşəm. Onların arasında Valid və Ofelya Sənani-lər, Davud Əhmədov, Sabir Ələsgərov, Aydın Qaradağlı və əlbəttə ki, həm də bizim Qara Tağızadə var idi. Verilişdən əvvəl və yaxud da sonra qısamüddətli görüş-söhbətlər olurdu. Mən Qara Tağızadəni ona görə “bizim Qara” adlandırıram ki, aramızda xüsusi ünsiyyət yaranmışdı. Mən həmişə ona deyirdim ki, mənə bələdçi ol, gedək Şuşaya. O da söz altında qalmırdı: “Sənin özün elə bir karvan başçısısan. Camaatı yığ apar Şuşaya, özün də hələ yolda qonaqlıq ver”.

Mən bunu çox istəyirdim, ancaq elə oldu ki, başımızın açılan, dünyanı bir gözü dolusu görmək istəyən vaxtımızda aləm qarışdı. Sovetlər çökdü.

Mən deyərdim ki, azadlıq amalını ilk alqışlayan zümrələrdən biri də radio diktorları idi. Çünki onlar ilk xəbərləri, ən təzə xəbərləri oxuyub studiyadan çıxanda azadlıq nəfəsi gətirən xəbərlərin emosiyası onların görünüşündə üzə çıxırdı. Mən bunu Qara Tağızadədə də, digərlərində də hiss edirdim.

Əlbəttə, Qara Tağızadə bir məktəb idi.

Dövrümüzün tanınmış söz ustadları Qara Tağızadə kimi böyük sənət adamlarının həyat yolunu birər-birər öyrənməli və gələcək nəsillərə çatdırmaq üçün onların haqqında dəyərli, məzmunlu, elmi monoqrafiyalar, hisslərə, duyğulara təsir edən bədii əsərlər yaratmalıdırlar. Bu sahədə kifayət qədər işlər görülməkdədir. Elə Lətafət Tağızadənin “Uzaq, yaşıl ada” xatirə kitabı bu sıradan ən dəyərli nümunədir. Onu deyim ki, Lətafət Tağızadə görkəmli sənətkar Qara Tağızadənin həyat yoldaşıdır. Əgər belə demək mümkünsə, Qara Tağızadənin necə yaşaması, zəngin və çoxcəhətli yaradıcılığı, onu əhatə edən mühit, iş yerindəki təsir dairəsi haqqında onun qədər məlumatlı olan ikinci bir şəxs olmaz. Ona görə də Qara Tağızadənin həyat və yaradıcılıq yolunu ehtiva edən “Uzaq, yaşıl ada” kitabı hər zümrədən və ən müxtəlif yaşlardan olan oxucular üçün çox dəyərli mənbədir. Bu kitabda dövrün maraqlı hadisələrinə münasibət də var. Qara Tağızadənin taleyi ilə bağlı olan məqamlar daha yaxından, daha diqqətlə öyrənilib yazıya gətirilib. Kitab bir neçə bölmədən ibarətdir.

Birinci bölmədə Qara Tağızadəni tanıyan insanların onun haqqında xatirə və təəssüratları yer alıb. Təkcə elə təəssüratları kitabda yer almış görkəmli Azərbaycan ziyalılarının, elm və mədəniyyət xadimlərinin, böyük sənət ustadlarının adlarını sadalamaq bəs edər ki, biz cəmiyyətdə Qara Tağızadənin hansı mühitdə, hansı nüfuz dairəsində olduğunu təsəvvür edək. Telman Orucov, Vasif Məmmədəliyev, Hidayət, Yusif Seyidov, Sabir Rüstəmxanlı, Çingiz Hüseynzadə, Gülxanım Vəliyeva, Paşa Qəlbinur, Züleyxa Hacıyeva, Ofelya Sənani, Əli Məhəmmədoğlu, Sevil Hüseynova, Sabir Quliyev, Vasif Quliyev, Ənvər Seyidov, Şəkər Aslan və bir çox digərləri, eləcə də qohumları, doğmaları Qara Tağızadəni ən müxtəlif cəhətdən xarakterizə edirlər, onun haqqında şirin xatirələr, gözəl təəssüratlar danışırlar. Esmira Nəzərlinin, Şəfəq Əlixanlının, Nazilə Babayevanın, Firuzə Nadirin ədəbi-bədii esseləri, xatirə yazıları Qara Tağızadəni həm də lirik bir insan, duyğulu bir şair, kövrək qəlbli bir vətənpərvər kimi tərənnüm edirlər.

Həqiqətən, kitabı vərəqlədikcə, oxuduqca duyğu və düşüncələrimiz çox kövrək notlar üstündə köklənir. Bizə elə gəlir ki, həqiqətən uzaq, yaşıl bir adanın danışan səsini eşidirik. Azərbaycan radiosunun tanış adı, ünvanı səslənir: “Danışır Bakı”. Səlis, aydın nitqlə mətn oxunur. Sözlər, cümlələr, fikrin məntiqi ruhumuza hopur, yaddaşımıza yazılır və nəhayət, mətn sona çatır, yenə tanış bir ad çəkilir: “Oxudu Qara Tağızadə”.

Lətafət Tağızadənin can yanğısı ilə qələmə aldığı Qara Tağızadənin zəngin arxivindən üzə çıxardığı, dəyərli yaradıcılıq örnəklərinin toplandığı “Uzaq, yaşıl ada” kitabı bizim mətbəədə işıq üzü görüb. Yəni “Bakı mətbəəsi” ASC-nin zəhmətkeş kollektivinin sevə-sevə çapına nail olduğu poliqrafiya nümunəsidir. Biz kitabı çap üçün götürəndə bu kitaba oxucu marağını nəzərə alıb titul səhifəsində xüsusi annotasiya verilməsini də məqsədəuyğun bildik: “Uzaq, yaşıl ada” kitabı görkəmli diktor, Azərbaycanın Əməkdar incəsənət xadimi, xalq artisti, Prezidentin fərdi təqaüdçüsü olmuş Qara Tağızadənin 75 illik yubileyinə həsr olunmuşdur. Kitabda tanınmış sənətkarın həmkarlarının, qohum və dostlarının, ailə üzvlərinin onun haqqında kövrək xatirələri, həmçinin öz yaradıcılığından nümunələr toplanmışdır. Səhifələri vərəqlədikcə Qara Tağızadənin həyat və sənət yolu, eyni zamanda ömrünün müxtəlif anlarını əks etdirən maraqlı foto-şəkillərlə də tanış olacaqsınız”. Təkcə elə bu kiçik mətnin içərisində, demək olar ki, Qara Tağızadənin böyük şəxsiyyət obrazını xarakterizə edən faktlar toplanıb. Bircə onu qeyd etməmişik ki, Qara Tağızadə - bizim hamımızın şuşalı bildiyimiz, Qarabağın fəxri adlandırdığımız, əsil adını da fərqli tanıdığımız Qara Tağızadə 1946-cı ildə Beyləqanda doğulub. O, Azərbaycan boyda bir şöhrətin, dünyaya səpələnmiş azərbaycanlıların yaxşı tanıdığı ecazkar səsin sahibi olaraq yarım əsrə yaxın Azərbaycan xalqı ilə və dünya azərbaycanlıları ilə ecazkar səsinin sehri ilə ünsiyyət bağlamışdı. O, 2018-ci ildə vəfat etdi. Onun ən böyük arzusu Şuşaya getmək, Şuşanı görmək idi. Mənə elə gəlir ki, onun ruhu Şuşa azad olunarkən ən ilkin sevinənlərdən olub.

Kitabın nəşrə hazırlanmasında yazıçı-publisist Sevda Əlibəylinin də təcrübəli jurnalist, yazıçı kimi redaktə fəaliyyətini qeyd etməyə bilmərik. O həm də kitaba çox maraqlı bir “ön söz” yazıb: “Qara Tağızadə - bu imzanın qarşısında nə fəxri ad, nə titul yazmağa heç bir lüzum yoxdur. Deyərdim ki, bu şəxs haqqında çoxları xatirə yaza bilər. Xüsusilə, mənim tay-tuşlarım və ya məndən bir az yaşlılar, ya da bir qədər kiçiklər... Qara Tağızadə 1966-cı ildə Azərbaycan radiosunda fəaliyyətə başlayanda hələ məktəbə getmirdim. Evimizdə televizorumuz da yox idi. Radionun təmənnasız xidməti ilə səhər yuxudan oyanır, axşam yuxuya gedirdik. Bu diktorun səsi özünəməxsus olaraq hamıdan fərqlənirdi. “Mətni oxudu Qara Tağızadə” deməsə də, səsini o dəqiqə seçib fərqləndirirdik”. Kitabın redaktoru və “ön söz”ün müəllifi bütöv bir nəslin zövqünün, mənəvi mühitinin formalaşmasında xüsusi xidmətləri olan Qara Tağızadənin dövrünün ictimai-siyasi həyatına, insanların təbiətinə təsiri haqqında kifayət qədər təsəvvür yaradır. Biz Sevda Əlibəylinin simasında Qara Tağızadə obrazını varlığında yaşadan böyük ziyalı zümrəsini görürük.




Bir-iki kəlimə də Qara Tağızadənin bədii yaradıcılığı, xüsusilə də şeirləri haqqında danışmaq istərdim. Elə Sevda Əlibəylinin özünün də istinad etdiyi “Şuşam” şeiri (may, 1999) onun poetik mühiti haqqında bizə dolğun məlumat verir. Bu şeirdə müəllifin Şuşa yanğısı bütün dolğunluğu ilə üzə çıxır. Hətta yanğı o qədər güclənir ki, oxucunun da varlığına sirayət edir:

“Salam, dustaq şəhərim!
Salam, ömrüm-günüm,
Dərdimi ovudanım,
Göz yaşını silənin yox.
Salam, yuxularımın şəhəri,
Salam, içimin səksəkəsi,
Gözü yolda, qulağı səsdə
Qərib, xəstə şəhərim!
Nə gələnin var, nə gedənin,
Hayanın sınıq-salxaq
Qəbir daşı,
Üzü bəri mələr dağlar –
Könlünün sirdaşı”.

Müəllif xəyalən Şuşaya salam verir, Şuşanın əhvalını soruşur. Ancaq Şuşa ilə arasındakı ayrılıq uzaqlığını onun Şuşaya doğmalığı, özünü Şuşanın bir zərrəsi bilməsi bu ayrılıq sərhədlərini kəsib götürür. Biz elə bil ki bu gün azad Şuşada gəzən insanların həsrətdən sonrakı yaşadığı hissləri təsəvvür edirik. Şübhəsiz, onun “Şuşam” şeirində həsrətin dəhşətli ağrısı var. Sanki faciə önündə dözüm sərhədlərini aşmış, kədərin qabağında bir dəli sevdalı faciə toyunda oynayır. O, içində yaşatdığı Şuşanın təbiətini yazır. Sınıq-salxaq qəbir daşlarını yada salır, üzü bəri mələr dağlarını Şuşanın həyanı kimi görür.

Müəllif elə bu yanğı ilə də şeirini davam etdirir:

“Salam, yolları sökülü,
Övladları yollara tökülü,
Şəlalə qulaclım,
Gözləri didik-didik,
Pırpız saçlım.
Gülümsər dağlarının
Gözü yaşlım.
Gözlərim uzanıb-uzanıb
Bir gün sənə çatacaq,
Bir gün bayramın gələcək,
Bir gün dəllalların gəbərəcək,
Salam, dustaq şəhərim,
O gün mütləq gələcək!”.

Çox gözəl ki, müəllif şeirini nikbin notlarla bitirir, inanır ki, Şuşa bir gün öz azadlıq haqqına qovuşacaq. 44 günlük Zəfər savaşının qalibi olan Ali Baş Komandanın “Sən azadsan, əziz Şuşa” sözlərini də biz bu şeirin epiloqu kimi qavrayırıq.

Qara Tağızadənin duyğuların bölməsinə toplanan şeirlərində də fəal həyat mövqeyini göstərən şəxsiyyət obrazı ilə qarşılaşırıq: “Vicdanı yox, Məsləki yox, İxtiyarı çox İnsan balası. Vicdanı itirdin dinmədik, Məsləki itirdin, dinmədik. Sənin üzündən hələ neçə təmiz vicdan susacaq. İxtiyarı itirən gününü gözləsək, gec olacaq”. Bu poetik lövhələri mən sadəcə Qara Tağızadənin ədəbi zövqü haqqında təsəvvür yaratmaq üçün təqdim etdim. Hələ onun gözəl nəsr qələmi də var imiş. Kitabda oxuculara iki hekayəsi təqdim olunur: “Kölgə” və “Bir toyun yuxusu” hekayələri. Demək, Qara Tağızadə təkcə ecazkar nitq, möcüzəli səs sahibi deyildi, həm də dəyərli söz ustadı idi. Gələcəkdə ədəbiyyat tariximizin qıraqda qalan səhifələrini araşdıranlar onu həm də müqtədir qələm sahibi olan bir yazar kimi də tədqiq edəcəklər.

Mən deyə bilmərəm, Qara Tağızadənin yaşadığı evin divarına xatirə lövhəsi vurulub, ya vurulmayıb. Beyləqanda, doğulduğu yerdə büstü var, ya yox. Çox sevdiyi Şuşada adı əbədiləşdiriləcəkmi? Bunları bilmirəm, ancaq onu bilirəm ki, görkəmli sənətkarın ömür-gün yoldaşı Lətafət Tağızadənin “Uzaq, yaşıl ada” kitabı (Bakı, 2021) onun xatirəsinə ən dəyərli töhfədir. Bu kitabın özü heç vaxt solmayacaq bir abidə kimi yaşayacaq və Qara Tağızadənin – bu əfsanəvi səs sahibinin kimliyi haqqında gələcək nəsillərə dolğun məlumat verəcəkdir.

Kitabın üz qabığında Qara Tağızadənin qeyri-adi təbəssümü ilə şəkli verilib. Sanki bu təbəssümlə o, “Mən həmişə sizin yanınızdayam” deyir.

Kitab nəfis tərtibatla nəşr olunub. Qara Tağızadənin həyat fraqmentlərini əks etdirən maraqlı foto-albom da diqqəti cəlb edir.

Kitabın hazırlanmasında “Bakı mətbəəsi” ASC-nin kollektivinin, xüsusilə korrektor Əməl Kərimovanın, dizayner Mülayim Vəliyevanın, çapçı Ceyhun Tağıyevin, cildçilər Mehriban Bayramova, Rəsmiyyə Həsənova, Raisa Yaqubbəyova, Xalidə İmaməliyeva və digər mətbəə işçilərinin xidmətlərini ayrıca qeyd etməyi özümə borc bilirəm.

Mənim rəhbərliyim altında çalışan kollektiv belə kitabların hazırlanmasına xüsusi məsuliyyətlə yanaşır. Bu işi Qara Tağızadə kimi sənətkarların qarşısında özlərinə mənəvi borc bilirlər.

Qara Tağızadə kimi böyük sənət adamlarının həyatı bizə çox şey öyrədir. Və, demək, həm də bir-birimizin qədrini bilməyi, insanlığı uca tutmağı öyrədir.

***10.09.2021***